## "COP29 - "Yaşıl maarifləndirmə"də medianın rolu" mövzusunda ikigünlük təlim yekunlaşıb

Medianın İnkişafı Agentliyi və ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə COP29 ideyalarının yerli auditoriyaya çatdırılmasında aktiv iştirak edəcək jurnalistlər üçün silsilə təlimlər çərçivəsində "COP29 - "Yaşıl maarifləndirmə"də medianın rolu" mövzusunda ikigünlük təlim yekunlaşıb.

Agentlikdən AZƏRTAC-a bildirilib ki, təlimdə 2001-2010-cu illər arasında iqlim dəyişikliyi siyasətləri üzərində çalışmış, Türkiyəni UNFCCC COP-da müzakirəçi kimi, iqlim dəyişikliyi ilə bağlı müxtəlif beynəlxalq konfrans və tədbirlərdə təmsil etmiş, beynəlxalq ekspert Ayşe Özge Kepenek Bozkırlıoğlu, ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun Enerji və Dayanıqlı İnkişaf Proqramının baş elmi işçisi Əhməd Hümbətov, həmin institutda enerji və ekoloji siyasət, yaşıl enerji və iqlim dəyişikliyi, davamlı inkişaf və su ehtiyatlarının idarə edilməsi üzrə ixtisaslaşmış baş elmi işçi Həcər Hüseynova jurnalistlərlə müvafiq mövzuda geniş fikir mübadiləsi aparıb, onları maraqlandıran sualları cavablandırıb.

Təlimin sonunda iştirakçılar sertifikatla təltif olunublar.

**AZƏRTAC**
**2024, 30 aprel**